# AİB "Azərsu" layihələrinin maliyyələşməsində iştirak edəcək

*"Azərsu" Açıq Səhmdar Cəmiyyətində "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı"nın icrası haqqında ətraflı müzakirələr aparılıb.*

"Azərsu" ASC-nin mətbuat xidmətindən bildirilib ki, müzakirələr dünən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində Azərbaycanda səfərdə olan Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya Departamentinin baş direktoru Şon Sullivanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş zamanı baş tutub. ASC-nin sədri Qorxmaz Hüseynov "Su təchizatı və kanalizasiya investisiya proqramı" çərçivəsində Göyçay şəhərində içməli su və kanalizasiya şəbəkələrinin tamamilə yenidən qurulduğunu xatırladaraq qeyd edib ki, layihənin icrası nəticəsində əhalinin içməli su və kanalizasiya xidmətlərindən istifadəsi yaxşılaşıb. Layihənin əhatə etdiyi Ağdaş və Beyləqan şəhərlərində isə tikinti-quraşdırma işləri yekunlaşma ərəfəsindədir. Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya Departamentinin baş direktoru Şon Sullivan "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı"nın icrasından razılığını bildirib və əlavə edib ki, təmsil etdiyi bank bundan sonra da Azərbaycanda içməli su və kanalizasiya infrastrukturlarının yenidən qurulması layihələrinin maliyyələşdirilməsində iştirak etməkdə maraqlıdır. Görüşdə "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı"nın icrası və növbəti mərhələlərdə maliyyələşdiriləcək işlər haqqında ətraflı müzakirələr aparılıb. Qeyd edək ki, Azərbaycan hökumətinin Asiya İnkişaf Bankı ilə birgə maliyyələşdirdiyi "Şəhər su təchizatı və kanalizasiya layihəsi" və "Su təchizatı və kanalizasiya investisiya proqramı" çərçivəsində Göyçay, Ağdaş, Beyləqan və Ağcabədi şəhərlərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması nəzərdə tutulur. Bu layihə çərçivəsində Göyçay şəhərində su və kanalizasiya şəbəkələrinin tikintisi başa çatmış, tullantı sutəmizləyici qurğunun tikintisinə hazırlıq gedir. Ağdaş və Beyləqan şəhərlərində isə tikinti-quraşdırma işlərinin böyük hissəsi yekunlaşıb. Ağcabədi şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə tender keçirilib və 2016-cı ildə işlərə başlanılacaq.



# Azərbaycan və Qazaxıstan dəmir yolları arasında yük daşınması həcmi artacaq

*Azərbaycan və Qazaxıstan dəmir yolları arasında yük daşınması həcminin artırılması məsələləri müzakirə olunub.*

"Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyindən bildirilib ki, müzakirələr aprelin 12-də Bakıda "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanovla "Qazaxıstan Dəmir Yolları" Səhmdar Cəmiyyətinin sədri Askar Mamın arasında ikitərəfli görüş zamanı aparılıb. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov Azərbaycan Dəmir Yolunda reallaşdırılan layihələr, qarşıda duran perspektiv vəzifələr haqqında ətraflı məlumat verib. Görüşdə Azərbaycan və Qazaxıstan dəmir yolları arasında yük daşınması həcminin artırılması, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişaf perspektivləri, "ADY ekspess" MMC-nin , "KTZ Express" SC, "Trans Kavkasus Terminals" MMC və "ACSC Logistics" MMC arasında Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumu yaradılması və Azərbaycan dəmir yolu nəqliyyatı üçün teplovoz, rels, yoldəyişdirici qurğuların gətirilməsi məsələləri müzakirə olunub. "Qazaxıstan Dəmir Yolları" Səhmdar Cəmiyyətinin sədri Askar Mamın Azərbaycan və Qazaxıstan Dəmir Yolları arasında ikitərəfli əməkdaşlığın gələcək perspektivləri haqqında danışıb.



# Gömrükdə mallar və nəqliyyat vasitələri "ASAN imza" ilə bəyan ediləcək

*Cari il aprelin 4-dən etibarən pilot layihə çərçivəsində Elektron Hökumət Portalında malların və nəqliyyat vasitələrinin gömrük sərhədində bəyan edilməsinə dair elektron xidmət fəaliyyət göstərir.*

Sözügedən elektron xidmətdən "ASAN imza" mobil elektron imza vasitəsilə istifadə edərək vətəndaşlar xaricdən gətirdikləri malları və nəqliyyat vasitələrini gömrük təmsilçiliyi institutu çərçivəsində operativ olaraq onlayn şəkildə gömrük rəsmiləşdirməsindən keçirə bilər. "ASAN imza"dan bildirilib ki, bunun üçün deklarant "ASAN imza" ilə Elektron Hökumət portalına daxil olmalı (autentifikasiyadan keçməli) və müvafiq elektron xidməti seçərək gömrük bəyannaməsini elekt- [illegible] sonda bəyannaməni "ASAN imza" ilə təsdiqləməlidir (imzalamalıdır). Elektron gömrük bəyannamə sisteminin tətbiqi gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük orqanlarına bəyan edilməsi ilə bağlı prosedurların sadələşdirilməsi, gömrük xidmətlərinin göstərilməsində şəffaflığın təmin edilməsi, sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması və xarici ticarət əməliyyatlarının daha da stimullaşdırıl- [illegible] etmək lazımdır ki, gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi prosesində ən zəruri məqam bəyannamənin vətəndaş tərəfindən imzalanmasıdır. Yeni elektron bəyanetmə sistemi istifadəyə verilənədək bu əməliyyat gömrük sərhədlərində mal sahibinin kağız üzərində formanı dolduraraq imzalaması ilə aparılırdı. Ölkəyə idxal edilən malların və nəqliyyat vasitələrinin gömrükdə elektron bəyan edilməsi za- [illegible] mətindən istifadə bu əməliyyatın olduqca rahat və çevik şəkildə icra edilməsi və istifadəçi məmnuniyyəti baxımından mühüm əhəmiyyət daşıyır.

**Tural**



*Dünən Beynəlxalq Mətbuat Mərkəzində "Qanunsuz Parklamalara Qarşı Mübarizə" İctimai Hərəkatı və "Azadİnform" İnformasiya Agentliyinin martın 3-də elan etdiyi paytaxt yollarında yol hərəkəti qaydalarının pozulması ilə bağlı "Ən yaxşı foto və video-süjet" müsabiqəsinin qalibləri mükafatlandırıldı.*

# Sürücülük mədəniyyətinin səviyyəsi yüksəldilir

*Mükafatlandırma mərasimində çıxış edən "Azadİnform" İnformasiya Agentliyinin baş redaktoru Niyaz Niftiyev qeyd etdi ki, hamı üçün açıq olan müsabiqəyə göndərilən foto və videoların sayına heç bir məhdudiyyət qoyulmayıb, ümumilikdə 13 nəfər foto, 5 nəfər isə video göndərib. Onun sözlərinə görə çəkilən foto və video-süjetlərin əsas mövzusu sürət həddinin aşılması, avtomobillərin bir-biri ilə yarışa çıxması, qanunsuz parklamalar, sürücülərin tullantıları yolun ortasına atması və s. olub.*

N.Niftiyev bildirdi ki, bu cür yarışmaların keçirilməsində məqsəd sürücülük mədəniyyətinin səviyyəsini yüksəltməkdir. Baş redaktor qeyd etdi ki, müsabiqəyə təqdim olunmuş foto və video-süjetlərdə qayda pozan sürücülər ilk növbədə özlərinə kənardan baxmaq imkanı əldə edirlər: "Ümid edirik ki, bundan sonra həmin sürücülər sükan arxasında daha diqqətli və mədəni olmağa çalışacaqlar".

Tədbirdə çıxış edən "Qanunsuz Parklamalara Qarşı Mübarizə" İctimai Hərəkatının rəhbəri İsgəndər Quliyev bildirdi ki, hər gün həyatımız üçün təhlükə yaradan, yol hərəkəti iştirakçılarına stress yaşadan bu cür sürücülərlə mübarizə aparmaq lazımdır. Onun sözlərinə görə, artıq hər kəs dərk edib ki, yol hərəkəti qaydalarının pozulması hallarının qarşısını yalnız cərimə və sərt cəzalarla almaq mümkün deyil: "Bu işdə təbliğat və maarifləndirmə ən güclü vasitədir. Ümid edirik ki, bu cür müsabiqələr yol hərəkəti qaydalarının pozulması istiqamətində fayda verəcək". İ.Quliyev müsabiqədə qalibləri öz məhsulları ilə mükafatlandıran "Veysəloğlu" Şirkətlər Qrupunun rəhbərliyinə də təşəkkür etdi: "Bu kimi sosial layihələrdə "Veysəloğlu" Şirkətlər Qrupu hər zaman ictimai təşkilatlara və mediaya dəstək verir".

Qeyd edək ki, sonda 4 qalibə (Yeganə Süleymanova - qhtxeber.az, Ruslan Xəlilov - "Gündəlik Teleqraf", Elşən Şirbağırov - İTV Carçıfilm, rejissor assienti, Mithət Abdullayev - müstəqil jurnalist) təşkilatçılar tərəfindən mobil telefon, "Veysəloğlu" Şirkətlər Qrupu tərəfindən isə hər bir qalibə hədiyyə paketləri təqdim olundu.

**Fuad Hüseynzadə**

